*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 225-230*

https://doi.org/10.62837/2025.3.225

b/m **SƏYYARƏ QƏHRAMANOVA**
b/m **SEVİNC RƏHMANOVA**
Azərbaycan Dillər Universiteti
Email:qehremanovaseyyare5@gmail.com

# DİLÇİLİK ELMİ ÜÇÜN DİL VƏ İDRAK PROSESİNİN HƏLLİ YOLLARI

**Açar sözlər:dil,idrak prosesi,predmetin xassələri, təfəkkür, kommunikasiya, problem.**

**Key words:language,cognitive process,properties of the objekt, thinking communication, problem.**

**Ключевые слова:язык,корнитивный процесс,свойства предмета, созерцание, коммуникация,проблема.**

Dil son dərəcə çoxşaxəli və çox funksiyalı fenomendir. Məhz o, həqiqi biliyə can atan fikrin inkişafını müəyyən edir. Dilin həqiqi mahiyyətini açmaq üçün onu müxtəlif aspektlərdə nəzərdən keçirmək zəruridir. Bunun üçün ilk növbədə onun strukturunu, sistemini, başlıca elementlərinin nisbətini, obyektiv gerçəklik və idrak prosesi ilə qarşılıqlı əlaqəsini, ictimai münasibətlər və mədəniyyət sistemində hansı funksiyaları yerinə yetirməsini və s. müəyyən etmək tələb olunur. Təbii ki, bir məqalə həcmində sözügedən problemlərin hamısını araşdırmaq qeyri-mümkündür. Ona görə də istər fəlsəfə, istərsə də, dilçilik elmləri üçün çox mühüm əhəmiyyət kəsb edən dil və idrak prosesi problemi üzərində dayanmağı daha məqsədəuyğun hesab edirik. Məhz bu problemin həlli dil fəlsəfəsini digər mühüm problemlərinin həlli üçün bir açarıdır. Təsadüfi deyil ki, dünyanın insan şüurunda inikasının spesifikliyi və onun dildə təzahürü ən çox mübahisə doğuran və hələ də elmi ədəbiyyatda öz həllini tam tapmayan problemlərdən biridir. Bunun bir sıra səbəbləri vardır. Birincisi, dil fenomeni bütün tədqiqatçılar üçün bir sirr olaraq qalır. Onlar belə hesab edirlər ki, ünsiyyət vasitəsi olmaq, kommunikasiya funksiyasını yerinə yetirmək dilin başlıca mahiyyətini müəyyən edən xassədir. Bu, həqiqətən də belədir. Dil özü-özlüyündə praktiki, gerçək şüurdur. Dili praktiki şüur adlandırarkən, hər şeydən əvvəl onun məgsədyönlü, instrumental fəaliyyətini nəzərdə tuturlar.

Lakin dilin kommunikasiya funksiyasını yerinə yetirməsi üçün onun hansı mərhələlərdən keçməsi, modifikasiyaya uğraması, dünyanı necə dərk etməsi və alınan nəticələrin hansı yollarla insanlar arasında ünsiyyət vasitəsinə çevirməsi idrak prosesinə ciddi təsir göstərməsi və onunla dialektik sıx əlaqədə olması tam aydınlaşdırılmamışdır. Bu, sirr olaraq qalır. Həmin problemi həll etmədən dilin kommunikasiya funksiyasının mahiyyətini axıra qədər düzgün başa düşmək qeyri-mümkündür. Kommunikasiya aktının əsasında insanın onu əhatə edən obyektiv

aləmi əks etdirmək prosesi durur. Burada obyektiv aləmin ayrı-ayrı tərəfləri deyil, nisbətən tam əksi verilir. Predmetin xassələri və onun qanunauyğun əlaqələri kommunikasiya aktında aşkar olunur va predmetə müxtəlif təriflər verilir. İkincisi, dil va idrak prosesinin dialektik əlaqəsini açmağa maneçilik törədən fəlsəfi ədəbiyyatda dil fonemenilə bağlı olan təfəkkür, şüur, ideal va idrak kateqoriyalarinin şərhindəki qeyri-müəyyənlik və anlaşılmazlıqdır. Belə ki, filosofların bir qismi təfərkkür kateqoriyasını geniş mənada götürür və təfəkkürün hissi-idrakdan çıxıs edərək onu dəyişdirməsini göstərirlər.

Deməli, təfəkkürü hissi idraksiz təsəvvür etmək çətindir. Halbuki filosoflarin digər qismi təfəkkürü mücərrəd (abstrakt) və yaxud məntiqi (rasional) idrakla eyniləşdirirlər və bununla da onu dar mənada götürürlər.Tanınmış Azərbaycan filosofu, prof. Y.Rüstəmov yazır ki, təfəkkür rasional (məntiqi) idrakdır(8,s.252) Bu hal dilin idraki fəaliyyətinin səviyyələrini müəyyən etməyə kömək etmir. Bununla bərabər, filosoflar təfəkkür, şüur ve idrak kateqoriyalarını eyniləşdirirlər (12,s. 392, və belə hesab edirlər ki, onların hər üçü obyektiv reallığın inikasının ali formasıdırlar. İdrakın da həmçinin müxtəlif səviyyələri göstərilir: hissi idrak, təfəkkür, empirik və nəzəri idrak . İdeal şüurun və insan fəaliyyətinin müəyyən aspekti kimi götürülür (15,≤309) Halbuki təfəkkür də ideal hadisələr növünə daxildir. Beləliklə, təfəkkür, şüur, idrak va ideal kategoriyaları haqqında söylənilən fikirlər göstərir ki, onlar arasındakı ümumi va fərqli cəhətlər tam müəyyən olunmamışdır. Ona görə də həmin fəlsəfi kategoriyaların dilə tətbiqi lazımı səmərə vermir. Biz bunu nəzərə alaraq dilin fəlsəfi problemini idrakin (inikasın), predmet-praktiki fəaliyyətin va kommunikasiyasının vəhdəti prinsipi əsasında təhlil etmək fikrindəyik. Bu məqsədlə təfəkkürü təkcə nəzəri (məntiqi, rasional) deyil, həm də praktiki təfəkkür kimi götürürük; dili də praktiki, gerçək şüur kimi götürürük. Bu baxımdan dil və idrak prosesini məntiqi (rasional) təfəkkür səviyyəsində deyil, hissi idrak səviyyəsində nəzərdən keçirməyi vacib sayırıq. Məhz bu aspektdə dilin praktiki, gerçək şüur olması özünü daha aydın şəkildə biruzə verir. Ancaq bu problemə toxunmazdan əvvəl dilin idrak prosesinə ciddi təsir göstərməsi va insan həyatında rolu məsələsi üzərində dayanmaq istərdik. Qeyd etmək lazimdir ki, dilin müxtəlif formalari mövcuddur: təbii dil, ədəbi dil, xalq danışıq dili, loru dil, ərazi dialekti, sosial dialekt, obrazlar dili (incəsənət), simvol va işarə dili. Tarixi inkişaf prosesində mürəkkəbləşən biliklər sistemi süni işarə sistemlərinin, məsələn, riyazi dilin meydana çıxmasına səbəb oldu. Lakin biz təbii dildən istifadə edəcəyik, çünki o, elmi anlayışların ilk ifadə vasitəsi olmuşdur, insan fəallığının əsas va ayrılmaz amili kimi çıxış edir. Heç bir elmi nəzəriyyə dilsiz yarana bilməz. Təbii dil ünsiyyət vasitəsi, hiss va həyacanın ifada vasitəsi, fikrin başqasına çatdırlması, eldə edilən biliyin saxlanma va sonrakı nəsillərə ötürülmə vasitəsi, nəhayət, fikri əsaslandırmaq, yəni başqasını nəyəsə inandırmaq vasitəsidir. İnsan varlığının heç bir fundamental problemi dilə xüsusi diqqət yetirilmədən, onun potensial idraki imkanlarını nəzərə

almadan qoyula və həll oluna bilməz. İnsan yeganə varlıqdır ki, dil vasitəsilə özü üçün problem yaradır va təfəkkürün müxtəlif tiplərindən istifadə edərək həmin problemi həll etməyə çalışır. Bu mənada dil insan şüurunun va davranışının idarə olunması vasitəsidir. Dil təfəkkür zəruri müqəddəm şərtidir. Dil va təfəkkürün qarşılıqlı asililiği, şərtliyi və təsiri elə amildir ki, bu amil insanı insan edir, onu digər canlı məxluqlardan fərqləndirir. Dünyanı müxtəlif cür qavramaq və strukturlaşdırmaq olar; insanın uşaq vaxtı mənimsədiyi dil onun dünyanı duyma və strukturlaşdırma qabiliyyətini müəyyən edir. Bunu hindu dillərini öyrənən Amerika tədqiqatçısı Bencamen Uorfun dil nisbiliyi konsepsiyası təsdiq edir. O, bu barədə yazır: müəyyən edilmişdir ki, hər bir dilin dil sisteminin əsasi (grammatika) sadəcə olaraq fikri əks etdirmə aləti deyildir. Əksinə, qrammatika özü fikri formalaşdırır, təfəkkür fəaliyyətini proqramlaşdırır. B.Uorfun dil nisbiliyi konsepsiyasi baxımından dil bir-biri ilə əlaqədə olan kateqoriyalar sistemidir; Bu sistem bir tərəfdən, obyektiv gerçəkliyi əks etdirir, digər tərəfdən isə dünyaya baxışı təsbit edir. B.Uorfun konsepsiyasina əsasən müxtəlif dillərdə danışan insan qrupları dünyanı müxtəlif cür qavrayır və başa düşürlər. Dünya dilləri bir-birindən həm onların lügətlərinin dünyanı təsnif etməsinə, həm də ayrı-ayrı məna vahidlərinin müxtəlif üsullarla kombinasiya edilməsilə fərqlənirlər. B.Uorfun fikrincə, bu kombinasiya növləri müəyyən dil qrupunun reallıq haqqında təsəvvürünü təhtəl-şüur formasında əks etdirir və müəyyən edir. Məsələn,alman dilində fellər zaman fərqlərinə müvafiq olaraq müxtəlif formalar (keçmiş, indiki və gələcək zaman) alırlar. Hindu qəbiləsinin dilində isə,əksinə,fellər ifadə etdikləri hərəkətin doğruluq dərəcəsinə görə fərqlənirlər.Başqasının sözü ilə məlum hadisə haqqında söhbət gedəndə bir fel,danışan adamın özü hadisənin şahidi olanda eyniköklü deyil,sinonim olan başqa fel işlədilir.Məsələn, törədilən cinayətin şahidi atəş səsini söz vasitəsilə "eşidir, "polis işçisi isə həmin hadisə haqqında protokol tərtib edərkən protokol formasında "eşidir".

Dilin və təfəkkürün ümumiliyi o deməkdir ki, idrak prosesində onlar bir-birindən ayrılıqda mövcud ola bilməzlər, əksinə, bir tam halında birləşirlər. Təvəkkürsüz dil mümkün olmadığı kimi, dil olmadan təfəkkür də mümkün deyildir. İnsanın təvəkkürü yalniz dil materialları bazasında, yəni ayrı-ayrı sözlər və ifadələr formasında mümkündür. Əgər sözlər təfəkkür prosesini tamamilə ifadə etsəydi, onda boşboğazlar « böyük mütəfəkkirlər» olardılar. Sözlər və ifadələr mücərrəd (məntiqi) təfəkkürün meydana çıxmasının müqəddəm şərtidirlər, təfəkkür də öz növbəsində dilin inkişafı üçün perspektivler açır. Anlayış sözdən azad ola bilmaz; söz səs və anlayışın vəhdətidir, anlayışların işarələridir. Səs insan üçün predmet təsəvvürü rolunu oynayır, anlayış isə bizim predmet haqqında baxışımızı ifadə edir. Söz anlayişın dildə ifadəsi, maddiləşmiş formasıdır. Anlayış adətən söz və cümlə ilə ifadə olunur. Məsələn, atom mürəkkəb hissəcikdir cümləsi müəyyən mühakiməni ifadə edir. Dilsiz mövcud olması mümkün ola bilməyən digər təfəkkür formaları

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 225-230*

kimi, mühakimə də cümlə xaricində meydana gələ bilməz. Sözün mənası predmet və hadisəyə olan iki əsas mü-nasibətdən yaranır: a) predmetin inikası; b) predmetin işarə olunması. Dil praktiki olaraq təfəkkürlü sıx əlaqədə insanın bütün ali psixi funksiyalarının həyata keçirilməsində iştirak edir. Təəssüf ki, bu əlaqə elmi ədəbiyyatda çox vaxt nitq va təfəkkür prosesinda paralel, yəni tam müstəqil, yanaşı mövcud olan əlaqə kimi şərh edilir və buna müvafiq olaraq dil və təfəkkür vahidlərinin (söz va anlayış, cümlə və mühakimə) qarşılıqlı münasibətləri müəyyən edilir. Bu isə dilin obyektiv aləmi əks etidirmək nəticəsində söz vasitəsilə əldə etdiyi mənanin bəsit, bayağı şərhindən başqa bir şey deyildir. Məna nitq fəaliyyətinin konstant (sabit) sistemidir. Həmin sistem dilin strukturunun bu və yaxud digər predmetlər sinfinə daxil olmasını təmin edir.Bununla da məna onun daşıyıcısı tərəfindən tam mənimsənildikdə insan fəaliyyətinin potensial tənzimləyicisinə çevrilir. Demək olar ki, dil ictimai əmək xarakterinə malik olması ilə yanaşı, şüurun spesifikliyini və ümumiyyətlə insan psixikasini müəyyən edən amillərdən biri kimi çixiş edir. Zənnimcə, dil və təfəkkür idrak prosesində müstəqil mərhələlər olmaqla yanaşı,qarşılıqlı sürətdə bir-birini şərtləndirir və tam halında birləşirlər. İdrak prosesində, xüsusilə hissi idrakda dilin əhəmiyyəti böyükdür. İnsanın hiss orqanlarının hər hansı maddi obyektlə təmasda olması, onun artıq dilə yiyələnməsini göstərir Bu yolla acı, şirin, turş və s. sözlər meydana çıxır. Bu fakt insanın həm də dil formaları ilə birlikdə keçmiş tarixi təcrübəni toplanmasını, ümumiləşdirməsini nümayiş etdirir. İnsan dil vasitəsilə hissi-empirik təcrübənin ayrı-ayrı faktların, onun yaşadığı və fəaliyyət göstərdiyi ictimai həyatın mühüm əlaqə və münasibıtləri haqqındakı bilikləri birləşdirir. Hər bir insan dilə yiyələndiyinı görə gündəlik həyatda praktiki olaraq çox əsrlik təcrübəyə əsaslanır.İnsan dildə ifadə olunan konkret məzmunu mənimsəməklə ictimai münasibətlər, mədəniyyət və biliklər sisteminə daxil olur.Bu baximdan dil hissi idraki təşkil edir və formalaşdırır. Dildə işarə insan şüurunun bəzi məzmununu ifadə etdiyinə görə sosial informasiya daşıyıcısına çevrilir. Danışıq və yaxud yazılı dilin ifadəsi məna və yaxud əhəmiyyət kəsb edir. Deməli, insanın maddi-mənəvi fəaliyyətini əks etdirən hissi idrak dildən və məntiqi (rasional) təfəkkürdən asılı olur. Biz adi praktiki həyatda real mövcud olan və hiss orqanları (lamisə, görmə, esitmə və s.) vasitəsilə bilavasitə qavranılan ayrı-ayrı konkret predmetlərlə əlaqədə oluruq. Ancaq, bununla bərabər, biz predmet və hadisələr arasındakı münasibətləri aşkar edirik va onlara olan münasibətimizi təsbit edirik. Bunu ən sadə cümlələrdə görmək olar: «bu evdir», «bu ev gözəldir» və s. «ev», «gözəl» sözləri bizim bilavasitə nəzərdə tutduğumuz müəyyən konkret ayrı-ayrı obyektlərə də aid ola bilərlər. «Ev» sözü olduqca bir-birinə oxşamayan bütün binalara aid edilə bilər; «gözəl» sözü həmçinin çox müxtəlif predmetlərə aid ola bilər. Belə ki, yalniz evlər gözəl deyildir. Lakin həmin sözlər konkret predmet və hadisələr arasındakı münasibətləri ümumiləşmiş formada əks etdirir və ifadə edir. Biz həmin sözləri işlədəndə bəzi ümumi xassələri, müxtəlif predmetlərin son dərəcə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 225-230*

fərqli olan xarakterik cəhətlərini nəzərdə tuturuq. Məhz xassələrin obyektiv ümumiliyi dildə əks olunaraq idrakın başlıca obyektinə çevrilir. Burada idrak prosesi belə gedir. İnsan, hər şeydən əvvəl, öyrəndiyi real, konkret predmetlərin həqiqi, obyektiv mövcud olan keyfiyyət və əlamətlərinə əsaslanır. Bununla yanaşı, fəal idrak prosesi gedir, yəni insan məqsədəuyğun şəkildə heç də həmişə bir-birinə təsir göstərməyən müxtəlif predmetləri müqayisə edir, praktiki məqsəd güdür və eyni zamanda həmin anda onu maraqlandırmayan münasibət və əlaqələrdən fikrən sərf-nəzər olur. İnsan sanki fikrən digər predmetlərlə münasibətdə olan konkret predmetin tamlığını iki yerə bölür. Dil konkret predmetin tamlığıni elə bölür ki, burada bir şey başqa şey vasitasilə, ümumi xüsusidə təzahür tapir, tam isə hər yerə nüfuz edən qüvvəyə çevrilir. Buna görə də konkret predmet potensial şəkildə ən müxtəlif xassə və əlamətlərin məcmusundan ibarət olur. Şübhəsiz, həmin predmet maddi tamlığında qalmaqda davam edir. İnsan öz fikri vasitəsilə tam halında olan konkret predmetdən əla münasibətləri və əlaqələri ayırır ki, onlar özlüyündə həmin predmetdən kənarda mövcud olmur. İnsan tərəfindən ayrılan və dərk olunan həmin obyektlər «ev», «gözəl» və s. sözlərə oxşar olan sözlərdə ifadə olunur. Söz-anlayış olmadan insan idraki qeyri-müəyyən olardı. Praktiki fəaliyyət prosesində sözlər-anlayışlar sonradan həmin fəaliyyətin mühüm komponentinə çevrilir. Biz konkret insan va yaxud sosial qrup, birlik haqqında danışarkən təbii ki, insan sözünü işlədirik. Biz «insan» sözünü çox hallarda bütün insan məxluqlarının ümumi xassələri, onların mahiyyətini digər bütün canlılardan fərqləndirmək haqqındakı biliklə bağlayırıq. Söz həmin biliklə vəhdət halında çıxış edəndə məhz anlayış kimi mövcud olur. Anlayış idrak prosesində sözlərdə təcəssüm olunmaqla yanaşı,predmet və hadisələrin ümumi, mühüm xassələrini və münasibətlərini əks etdirir.Əgər insan idrakının tarixi gedişində fikrin ümumiləşmiş forması işlənib hazırlanmasaydı,onda hər bir yeni nəsil hər bir konkret predmeti,əşyanı ayrı -ayrı sözlərlə yenidən təsvir etməyə müqayisə etməyə və ifadə etməyə məcbur olardı.Buradan belə aydın olur ki, sözlər-anlayışlar maddi-mənəvi aləmin ümumi xassələrini əks etdirir və ifadə edir.Sözlər-anlayışlar idrakın maddi deyil,ideal obyektləri olurlar və bununla da maddi-mənəvi ailəmin obraz şəklində inikası özlüyündə ümumiləşmənin birinci mərhələsini təşkil edir. Məsələn,əgər bizim şüurumuzda “insan”obrazı vardırsa,onda həmin obrazda müşahidə etdiyimiz müxtəlif adamların xüsusiyyətləri,xasiyyətləri və s.sin-tez şəklində olur.Əgər dili təkcə,xüsusi və ümumi fəlsəfi kateqoriyalar sistemində götürsək,onda dildə təkcə yoxdur, onun hər bir elementi tamın hissəsi kimi təzahür edir.Hissi idrak şeylərin ayrı-ayrı tərəfləri və xassələri haqqında bilik verir.Hissi idrakdan fərqli olaraq dil obyektiv aləmin bu və ya digər fraqmentini deyil,dünyanı tam şəkildə öyrənir və bütövlükdə təsvir edir. Beləliklə,dili donmuş,statik fenomen kimi yox,yaradıcı proses kimi götürüb təhlil etmək lazımdır.Yalnız bu yolla dilin potensial idrakı imkanlarını aşkar etmək olar.

## İstifadə olunmuş ədəbiyyat.

1.Arxiv K.Marks və F.Engels,M.1935.səh99
2.Rüstəmov Y.Fəlsəfənin əsasları. Bakı2004.səh252 -277
3.Rüstəmov.Y.Qloballaşma vəsivilizasiya .Bakı2001.səh.96
4.Yopf.B.Elm və dilçilik.M.1960.səh.174-175
5.Prof.Ramazanovun redaktorluğu ilə.Bakı 1997.səh.208-209

**Seyyare Qahramanova**
**Sevinj Rahmanova**

## SOLUTIONS TO LANGUAGE AND COGNITIVE PROCESSES FOR LINGUISTICS.

## SUMMARY

Speech realizing the function of the means of communication is the main feauture determining the essence of the language.The role of communication is great in carrying out the functions of the laungage.But to realize the communicative functions,language first of all is a means of underslanding of general features of objektive realities and pfenomena.İn this respect in the artikle the enfluence of language in the process of Cognition on the one hand,and on the other hand its potentials of possibilities in the understanding of the objective world are analysed.

If we consider language in the system of specific and general philosophical categories,then language does not exist alone ;each of its elements appears as part of a whole.Sensory perception provides knowledge about the individual aspects and properties of things.

## РЕШЕНИЯ ЯЗЫКА И КОГНИТИВНОГО ПРОЦЕССА ДЛЯ ЛИНГВИСТИКИ

## РЕЗЮМЕ

Функция быть средством общения,коммуникации-это свойства языка определяет его главную сущность.Однако коммуникативная функция языка невозможна без познания и обобщения общих черт, свойств и связей предметов и явлению объективного мира.С этого целью в статье анализируется,с одной стороны, влияние языка на процесс познания,а с другой-раскрываются познавательные потенциальные возможности языка в познании объективной действительности.Если рассматривать язык только в системе специальных и общий философских категорий,то язык не просто существует,каждый его элемент проявляется как часть целого.

Чувственное восприятие даёт знания о различных аспектах и свойствах вещей.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Aida Sabor**